

**Ramiz RÖVŞƏN**

# *Şair ölməzliyinin təsdiqi*

*"Doğuldum otuz doqquzda, otuz yeddidə tutuldum"* deyən şairin 85 yaşı tamam olur. O vaxt şeir yazmağa başlayan uşaqlara ata-analar fəxrlə "böyüyəndə Səməd Vurğun olacaq" desələr də, Səməd Vurğunun öz evində doğulan uşaq, atasını nə qədər böyük məhəbbətlə sevsə də, təkcə ona yox, ümumiyyətlə özünə qədərki heç bir şairimizə oxşamayan təkrarsız və bənzərsiz bir şair oldu. Bu gün onun bir çox misraları artıq ədəbiyyat faktından həyat faktına çevrilib.

"Bir yandan da bu yağış", "Telefon nömrələri bənzəməz bir-birinə" və yüzlərcə bu cür misralar həyatımızın müxtəlif anlarında özümüzdən ixtiyarsız yadımıza düşürsə, o anlarda keçirdiyimiz hissləri, duyğuları hər şeydən yaxşı ifadə eləyə bilirsə, bu onun bir şair kimi ölməzliyi və bənzərsizliyinin təsdiqidir.